**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**ÜZEYİR HACIBƏYLİ adına BAKI MUSİQİ AKADEMİYASI**

*Əlyazması hüququnda*

**VAHİD MƏMMƏDƏLİ oğlu MƏMMƏDOV**

# NAXÇIVAN MUSİQİ MƏDƏNİYYƏTİNDƏ XALQ ÇALĞI ALƏTLƏRİ ORKESTRİNİN ROLU

**6213.01 – Musiqi sənəti**

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı – 2018**

*Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində yerinə yetirilmişdir.*

| | |
|---|---|
| **Elmi rəhbər:** | **Cəmilə İsmayıl qızı Həsənova**<br>sənətşünaslıq üzrə elmlər doktoru, professor |
| **Rəsmi opponentlər:** | **Şəhla Həsən qızı Həsənova**<br>Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə elmlər doktoru, professor |
| | **Ellada Əlihüseyn qızı Hüseynova**<br>Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent |
| **Aparıcı təşkilat:** | **Gəncə Dövlət Universitetinin**<br>**“Musiqi fənləri” kafedrası** |

Müdafiə ________ mart 2018-ci ildə saat 14:00-da Bakı Musiqi Akademiyasının nəzdində yaradılmış F/D 02.151 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç., 98

Dissertasiya ilə Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat ________ fevral 2018-ci ildə göndərilmişdir.

**Dissertasiya şurasının elmi katibi,**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru,**
**dosent** **H.V.Məmmədova**

## DİSSERTASİYANIN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Naxçıvan Azərbaycanın ayrılmaz bir hissəsi olaraq, Azərbaycan xalqınm tarixində və mədəniyyətində çox böyük yer tutur. "Azərbaycanın siyasi, iqtisadi, mədəni və elmi həyatında özünəməxsus mühüm rol oynamış və oynamaqda olan Naxçıvanın qədim və zəngin tarixi vardır. Hər daşı, qayası tarixin canlı şahidi olmuş bu torpaq bir çox dünya şöhrətli alim və mütəfəkkirin, memar və ədibin, dövlət xadimi və sərkərdənin vətəni olmuşdur. Onların fəaliyyəti və irsinin bəşər tarixində əhəmiyyəti danılmazdır"[1]. Ümummilli liderimiz Heydər Əliyevin bu sözləri bu gün də bizim üçün istiqamətverici əhəmiyyətə malik olub, Naxçıvan mədəniyyətinin müasir dövrdə inkişafı ilə bağlı tədqiqatlar aparmağa əsas verir.

Bizim müraciət etdiyimiz mövzunun aktuallığı Naxçıvan Muxtar Respublikasının musiqi mədəniyyətinin inkişafı, musiqi yaradıcılığı, ifaçılığı və musiqi təhsilinin yüksəlişi prosesinin öyrənilməsi, bu baxımdan Xalq çalğı alətləri orkestrinin fəaliyyətinin tədqiqi, Azərbaycan musiqisindəki əhəmiyyətli yeri və rolunun öyrənilməsi ilə bağlıdır.

Naxçıvan Xalq çalğı alətləri orkestri zəngin musiqi ifaçılığı ənənələrinə malikdır. Orkestrin tərkibi Naxçıvanda fəaliyyət göstərən xalq çalğı alətləri ifaçılarından ibarətdir. Orkestr yüksək peşəkarlığı ilə fərqlənərək, Muxtar Respublikanın mədəni həyatında mühüm yer tutur, Naxçıvan xalq çalğı alətləri orkestrinin repertuarının əsasını təşkil edən Azərbaycan bəstəkarlarının müxtəlif həcmli əsərlərinin araşdırılması, onların janr, üslub və musiqi dilinin xüsusiyyətlərinin təhlili aktuallıq kəsb edir. Azərbaycan musiqisində yaranan yeni əsərlərlə ifaçılıq tələblərinin, xüsusiyyətlərinin dəyişildiyini, müəyyən dövrlərdə yüksəlişini müşahidə edirik. Bütün bunların öyrənilməsinə böyük ehtiyac vardır və aktual bir mövzu kimi irəli sürülür.

**Mövzunun işlənmə dərəcəsi.** Bizim tədqiqatımız Naxçıvanda xalq çalğı alətləri orkestrinin yaranması və inkişafı ilə bağlı olduğuna görə biz ilk növbədə, bu mövzunu Naxçıvan mədəniyyəti kontekstində araşdırmışıq. Bu baxımdan Naxçıvan tarixi və mədəniyyəti ilə əlaqədar tədqiqatları qeyd etməliyik.

Ali Məclis Sədri Vasif Talıbovun bilavasitə dəstəyi, qayğısı və himayəsi ilə Naxçıvan Muxtar Respublikasmm tarixinin, abidələrinin, folklorunun, ədəbi-mədəni mühitinin öyrənilməsi istiqamətində tədqiqat işləri aparılmış, bir sıra kitab və monoqrafıyalar çap edilmişdir. Belə əsərlərə aid

---

[1]Naxçıvan tarixinin səhifələri. "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumun materialları. B.: Azərbaycan, 1996, s. 3.

"Naxçıvan Ensiklopediyası"nı (2 cilddə), "Naxçıvanın Tarixi Abidələri" (ingilis və Azərbaycan dilində), "Naxçıvanın Folklor Antologiyası"nı (I və II cildlər), "Naxçıvan Teatrının Salnaməsi"ni (1883-2008-ci illər) və b. göstərə bilərik. 1996-cı ildə "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumunun keçirilməsi Naxçıvanda elmi müəssisələrin fəaliyyətini canlandırdı, Naxçıvanın hərtərəfli və elmi cəhətdən öyrənilməsinə təkan verdi. Sonrakı illərdə də bir sıra beynəlxalq səviyyəli simpozium və konfranslar keçirilmişdir.

Ulu öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikanın müasir inkişafındakı rolu bir sıra nəşrlərdə işıqlandırılmışdır. Bunlardan akademik İ.Həbibbəylinin "Heydər Əliyev və Naxçıvan Dövlət Universiteti" (Bakı, 2002), "Heydər Əliyevin həyatı və fəaliyyətinin Naxçıvan dövründə Naxçıvan Dövlət Universiteti" əsərlərində, Ə.Cabbarlının "Heydər Əliyev və Naxçıvan tarixi məsələləri" (Naxçıvan, 2015) tədqiqatlarını qeyd edə bilərik. Akademik İ.Hacıyevin "Naxçıvan Muxtar Respublikasınm ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər. Naxçıvan, 2011), İ.Hacıyev və Ş.Məmmədovun "Naxçıvan və naxçıvanlılar" (Bakı, 2001), İ.Həbibbəyli, İ.Hacıyev, B.İsmayılovun "İntibahın 15 ili" (Naxçıvan, 2011) kimi tədqiqat əsərləri müasir dövrdə Naxçıvan mədəniyyətinin inkişafının mühüm hadisələrini işıqlandırır.

Naxçıvanlı mədəniyyət xadimlərinin əsərlərindən musiqi mədəniyyəti haqqında zəngin məlumat alırıq. N.Quliyevin "Naxçıvan musiqi mədəniyyəti tarixindən" (Bakı, 1999) tədqiqat əsəri qədim dövrlərdən XX əsrin sonlarına kimi Naxçıvan musiqi mədəniyyətinin inkişaf yollarını işıqlandırır. C.Vəzirovun və J.Əliyevanın "Sözlü nəğməli Naxçıvan" kitabı (Bakı, 2003) Naxçıvanın mədəniyyət tarixinin inkişafı, burada fəaliyyət göstərən mədəniyyət və incəsənət xadimlərinin həyat və yaradıcılığı barədə zəngin informasiya mənbəyidir. J.Qulamovanın "Naxçıvan Muxtar Respublikası Bəstəkarlar təşkilatının 30 ildə keçdiyi yaradıcılıq yolu" (Bakı, 2010) kitabı Naxçıvanın musiqi mədəni mühiti haqqında maraqlı faktlarla zəngindir. "Naxçıvan MR Bəstəkarlar Təşkilatı" (Bakı, 2001) kitabında Azərbaycan Bəstəkarlar İttifaqının üzvləri olan naxçıvanlı bəstəkarlar və musiqişünaslar haqqında maraqlı məlumat verilmişdir. R.Kərimovun "Naxçıvan musiqi mədəniyyəti. Musiqi təhsili" (Bakı, 2012) kitabı muxtar respublikada musiqi mədəniyyətinin inkişafına həsr olunmuş dəyərli mənbədir.

Naxçıvanın mədəniyyəti, müasir dövrdə musiqi həyatı ilə bağlı olan zəngin mənbələrdən biri də "Naxçıvan Muxtar Respublikası" internet portalıdır. Burada Naxçıvanın qədim mədəniyyət tarixi, görkəmli şəxsiyyətlər,

milli musiqi alətləri, xalq mahnı və rəqsləri, muxtar respublikada fəaliyyət göstərən teatrlar, konsert müəssisələri, musiqi kollektivləri haqqında məlumat toplanmışdır.

Mövzu ilə bağlı olaraq, Azərbaycan musiqişünaslığında xalq çalğı alətləri orkestri ilə bağlı tədqiqatları da qeyd etməliyik.

Dahi bəstəkar və musiqişünas Ü.Hacıbəylinin “Azərbaycan musiqi həyatına bir nəzər”, “Şərq musiqisi və Qərb musiqi aləti”, “Azərbaycanda musiqi tərəqqisi” (Bakı, 1965) və b.məqalələrində Azərbaycanda mövcud xalq çalğı alətlərinin haqqında dəyərli fikirlər söylənilmişdir. Ü.Hacıbəylinin Naxçıvan musiqi mədəniyyətinin inkişafında da böyük rolu olmuşdur. Bu baxımdan, “Üzeyir Hacıbəyli ensiklopediyası” (Bakı, 1996), Naxçıvan mədəniyyəti ilə bağlı tədqiqatlar maraqlı məlumat mənbəyidir.

Azərbaycan şifahi ənənəli musiqi yaradıcılığı kontekstində Naxçıvan musiqi folklorunun öyrənilməsi baxımından bir sıra musiqişünas-alimlərin böyük xidmətləri olmuşdur. M.İsmayılovun “Azərbaycan xalq musiqisinin janrları” (Bakı, 1960) tədqiqatı bu qəbildəndir. B.Hüseynlinin “Azərbaycan xalq rəqsləri” (I dəftər “Yallı” – 1965) məcmuəsində Naxçıvandan toplanmış yallı və halayların not yazıları və müəllifin bu janrla bağlı xüsusi tədqiqatları öz əksini tapmışdır. Ə.İsazadə və N.Məmmədovun “Azərbaycan xalq mahnıları və oyun havaları” məcmuəsində (II dəftər. Bakı, 1984) Naxçıvanda yazıya alınmış bir sıra nümunələr öz əksini tapmışdır. Bu baxımdan S.Abdullayevanın “Азербайджанская инструментальная музыка (ред. В.Петрова, М., Музыка, 1990) kitabı da diqqəti cəlb edir. Azərbaycan rəqs sənətinin, xüsusilə yallıların öyrənilməsində xoreoqraf K.Həsənovun “Azərbaycan qədim folklor rəqsləri” (Bakı, 1988) adlı tədqiqatını da qeyd etmək lazımdır. Ə.Ələkbərovanın “Naxçıvan zonasının Yallı rəqsləri” mövzusunda dissertasiyası (Bakı, 1994) bu janrın öyrənilməsində mühüm addımdır. Bütün bu musiqişünaslıq tədqiqatları Azərbaycanın zəngin folklorunda Naxçıvanda yaranıb inkişaf etmiş mahnı və rəqslərin mühüm əhəmiyyətə malik olduğunu bir daha sübut edir.

Azərbaycanda xalq çalğı alətləri orkestrinin təşəkkülü, inkişaf yolu və fəaliyyətinə dair bir sıra musiqişünaslıq tədqiqatları mövcuddur.

S.Abdullayevanın “Azərbaycanın xalq çalğı alətləri” (B., 2000), V.Əbdülqasımovun “Azərbaycan tarı” (B., 1989), K.Kərimovun “Azərbaycan xalq çalğı alətləri orkestri” (B., 1959), O.Quliyevin “Azərbaycan xalq çalğı alətləri orkestri” (B., 1988) tədqiqatında orkestrin keçdiyi yaradıcılıq yolunun dolğun təsviri ilə yanaşı, orkestrin tərkibi və alətlər qrupu haqqında müfəssəl məlumat verilir. Ə.Rəhmətovun “Azərbaycan xalq çalğı alət-

ləri və onların orkestrdə yeri" (B., 1980), S.Ələsgərov və S.Abdullayevanın "Azərbaycan xalq çalğı alətləri və orkestrləşdirmə" (B., 1996), A.Məmmədovun "Simli musiqi alətlərimiz" (B., 2001), A.Nəcəfzadənin "Azərbaycan çalğı alətlərinin izahlı lüğəti" (B., 2004) kimi əsərlər bu qəbildəndir.

Azərbaycan bəstəkarlarının xalq çalğı alətləri orkestri üçün yazılmış əsərlərinə həsr olunmuş Z.Nəcəfovanın "Azərbaycan bəstəkarlarının yaradıcılığında xalq çalğı alətləri orkestri üçün süita janrının təfsiri" namizədlik dissertasiyasını (Bakı, 2009), M.Qasımovanın "Azərbaycan musiqisində dirijorluğun təşəkkülü və inkişaf mərhələləri (xalq çalğı alətləri orkestri)" (Bakı, 2013) dissertasiyalarını göstərə bilərik.

Bütün bunlarla yanaşı, Naxçıvan xalq çalğı alətləri orkestrinin yaranma tarixi və fəaliyyəti ilə bağlı arxiv materiallarını, konsert proqramlarını da informasiya mənbəyi kimi qeyd etməliyik.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın elmi yeniliyi onunla bağlıdır ki, burada ilk dəfə olaraq, Naxçıvanda təşkil olunmuş xalq çalğı alətləri orkestrlərinin keçdiyi inkişaf yolu, onların nailiyyətləri, müasir musiqi mədəniyyətindəki rolu işıqlandırılmışdır.

Azərbaycanda və bilavasitə Naxçıvanda xalq çalğı alətləri orkestrinin təşəkkülü prosesində repertuarın formalaşması məsələsi araşdırılmışdır. Dissertasiyada xalq çalğı alətləri orkestri üçün yaranmış əsərlərin icmalı verilmiş, Naxçıvan xalq çalğı alətləri orkestrinin repertuarı təhlil edilmişdir. Naxçıvan xalq çalğı alətləri orkestrinin fəaliyyətində müəyyən mərhələ təşkil edən əsərlər tədqiq olunmuş, onların janr xüsusiyyətləri, musiqi məzmununun əsas cəhətləri öyrənilmişdir. Naxçıvan xalq çalğı alətləri orkestri ifaçılığının əsas istiqamətləri göstərilmişdir.

Azərbaycan musiqişünaslığında ilk dəfə olaraq, dissertasiyada Naxçıvanda xalq çalğı alətləri ifaçılığının tarixi inkişaf mənzərəsi nəzərdən keçirilmiş, Naxçıvanda yaşayıb-yaradan Azərbaycan bəstəkarlarının xalq çalğı alətləri orkestri üçün əsərlərinin musiqi ifaçılığındakı rolu müəyyənləşdirilmişdir.

İlk dəfə olaraq, bu dissertasiyada Naxçıvan xalq çalğı alətləri orkestri üçün bəstələnmiş Yaşar Xəlilovun, Kamal Əhmədovun və Rəşid Məmmədovun əsərlərinin təhlili verilmişdir. Bütün bunlar dissertasiyanın elmi yeniliyinin əsas göstəriciləridir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Naxçıvanda xalq çalğı alətləri orkestrinin inkişaf tarixinin mərhələlərini öyrənməkdən və ifaçılıq xüsusiyyətlərini üzə çıxarmaqdan ibarətdir. Bu məqsəddən irəli gələrək, bir sıra vəzifələrin həyata keçirilməsi vacibdir:

- Naxçıvanda musiqi mədəniyyətinin inkişaf yollarının araşdırılması;

- Azərbaycanda xalq çalğı alətləri ifaçılığının inkişaf mərhələlərinin, ansambl və orkestrlərin yaranması məsələlərinin öyrənilməsi;

- XX əsrdə Azərbaycan xalq çalğı alətləri ifaçılığında not sisteminin tətbiqinin, xalq çalğı alətləri orkestrinin formalaşmasının əhəmiyyətinin üzə çıxarılması;

- Naxçıvanda Xalq çalğı alətləri orkestrinin yaranması və inkişafı tarixinin xarakterizə olunması;

- XX əsrdə və XXI əsrin əvvəllərində yaranmış xalq çalğı alətləri orkestri üçün əsərlərin janr xüsusiyyətlərinin, musiqi dilinin təhlili, bədii ifaçılıq üslubunun araşdırılması və onların milli musiqi ifaçılığının inkişafındakı əhəmiyyətinin üzə çıxarılması.

Dissertasiyanın məqsəd və vəzifələri çərçivəsində bütün bu məsələlərin tədqiqi Naxçıvanda xalq çalğı alətləri orkestrinin ifaçılıq xüsusiyyətlərinin öyrənilməsinə yol açır.

**Tədqiqatın obyekti.** Dissertasiyada tədqiqat obyekti kimi Naxçıvanda xalq çalğı alətləri orkestrinin inkişaf yollarının öyrənilməsi əsas götürülmüşdür.

**Tədqiqatın predmetini** Azərbaycan bəstəkarlarının xalq çalğı alətləri orkestri üçün yazılmış əsərləri, onların janr xüsusiyyətləri, bədii və ifaçılıq keyfiyyətlərinin araşdırılması təşkil edir.

**Tədqiqatın materialı.** Dissertasiyada tədqiqatın materialı kimi Azərbaycan bəstəkarlarının xalq çalğı alətləri orkestri üçün yazılmış əsərlərindən istifadə olunmuşdur.

**Tədqiqatın metodoloji əsası.** Dissertasiya üzərində iş prosesində tarixi araşdırma, deduksiya və müqayisəli təhlil metodlarından istifadə olunmuşdur. Azərbaycan musiqişünaslarının elmi tədqiqatları bizim elmi araşdırmalarımızın əsas mənbəyinə çevrilmişdir.

Milli bəstəkarlıq məktəbinin banisi Üzeyir Hacıbəylinin yaradıcılığı tədqiqatın əsas metodoloji bazasını təşkil edir. Azərbaycan musiqişünaslarının və musiqi xadimlərinin – Elmira Abasovanın, Səadət Abdullayevanın, Əfrasiyab Bədəlbəylinin, Məmmədsaleh İsmayılovun, Qubad Qasımovun, Oqtay Quliyevin, Cəmilə Həsənovanın, Tariyel Məmmədovun, Rəna Məmmədovanın, İnarə Məhərrəmovanın, Əvəz Rəhmətovun, Ramiz Zöhrabovun və başqalarının Azərbaycan musiqi sənəti tarixinə, bəstəkar yaradıcılığına, xalq çalğı alətləri orkestrinə dair tədqiqatları bizim işimizin metodoloji bazasına çevrilmiş, onların elmi müddəalarına istinad olunmuşdur.

**Dissertasiyanın elmi-təcrübi əhəmiyyəti** ondan ibarətdir ki, tədqiqatın materiallarından və nəticələrindən Azərbaycan musiqi mədəniyyətinin öyrə-

nilməsi ilə bağlı elmi tədqiqatlarda, ifaçılıq problemlərinin araşdırılmasında, xalq çalğı alərləti orkestri ifaçılığının tədrisi prosesində, eləcə də Ali musiqi məktəblərində "Azərbaycan musisiqisi tarixi", "Xalq çalğı alətləri ifaçılığı sənətinin tarixi" fənlərinin tədrisində yardımçı vəsait kimi istinad oluna bilər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin "İncəsənət" fakültəsində yerinə yetirilmişdir. Dissertasiyanın mövzusu üzrə müəllifin bir sıra məqalələri nəşr olunmuş, konfranslarda çıxışları və tezisləri çap edilmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, iki fəsil, onların daxilində altı yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** bölməsində mövzunun aktuallığı əsaslandırılır, onun elmi işlənmə səviyyəsi, elmi yeniliyi açıqlanır, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası, təcrübi əhəmiyyəti müəyyənləşdirilir.

**Dissertasiyanın I fəsli "Naxçıvanda xalq çalğı alətləri orkestrinin yaranma tarixi və musiqi mədəniyyətinin inkişafında rolu" adlanır.** Bu fəsil üç yarımfəsildən ibarətdir.

**I fəslin birinci yarımfəslində - 1.1. "Müasir dövrdə Naxçıvan musiqi mədəniyyətinin tədqiqi məsələləri" nəzərdən keçirilir.**

Naxçıvan Muxtar Respublikasının mədəniyyət tarixini öyrənərək, biz əsas diqqətimizi respublikanın rəhbərliyi tərəfindən milli mədəni irsimizin qorunması məsələlərinə və onların musiqi mədəniyyətinin inkişafında təcəssümünə yönəltmişik. Naxçıvan mədəniyyətinin bu günkü inkişaf mənzərəsində musiqinin mühüm rolu vardır. Azərbaycanda gedən musiqi mədəniyyətinin yüksəlişində Naxçıvanda yaşayıb-yaradan bəstəkarların yaradıcılığı inkişaf etmiş, bir çox musiqi kollektivləri yaranmış, milli musiqiçi kadrlar fəaliyyətini genişləndirmişdir.

Azərbaycanın ən qədim insan məskənlərindən olan Naxçıvanın musiqi mədəniyyəti Azərbaycan mədəniyyətinin ümumi axarında inkişaf etmişdir. Eramızdan əvvəl V minilliyə aid olan Şərur yallılarının, bu günümüzə qədər gəlib çatan mənbələri Naxçıvan musiqisinin möhkəm bünövrəyə malik olduğunu göstərir. Yalnız Naxçıvana aid olan 100-dən artıq yallı növü, çox sayda aşıq havaları, Şərur bölgəsində Arpaçayın yaxınlığındakı ərazilərdən birində yaranan "Apardı sellər Saranı" və digər xalq mahnıları bu diyarın zəngin musiqisinin təkrarsız nümunələridir.

Naxçıvan torpağı Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük əməyi olan musiqiçilər yetişdirmişdir. Bunlardan XVIII əsrdə zəmanəsinin məşhur musiqiçisi olan Muradağa Naxçıvanlının, məşhur aşıq Ağ Aşıq Allahverdi Kosacanlının adlarını xüsusi qeyd etmək lazımdır. Naxçıvanlı aşıqların yaratdıqları havalar - "Naxçıvani", "Naxçıvan gülü", "Köhnə Naxçıvan" "Ağır Şərili", "Yüngül Şərili" və s. bu kimi orijinal saz havaları, "Ordubadlı Kərim", "Ziyad-Şövkət" dastanları Naxçıvanda saz-söz sənətinin zənginliyini və özünəməxsusluğunu göstərir.

Naxçıvanda muğam sənəti sürətlə inkişaf etmiş və xalq tərəfindən böyük hörmət, ehtiramla qarşılanaraq həvəslə öyrənilmişdir. Naxçıvan mədəniyyətinin inkişfında poeziya-musiqi məclislərinin də böyük rolu olmuşdur. XIX əsrin 30-40-cı illərində Naxçıvanda Ehsan xan Kəngərlinin qızı Qönçəbəyimin şərəfinə adlanan "Qönçeyi-ülfət" ədəbi məclisi, Ordubadda "Əncümani-şüəra" məclisinin ətrafına dövrün qabaqcıl ziyalıları – Məmməd Səid Ordubadinin atası Fəqir Ordubadi, Məmməd Tağı Sidqi, Əhməd Ağa Şəmi, Aşıq Abbas Dəhri və başqaları toplaşaraq ədəbiyyat və incəsənətimizin inkişafında müstəsna rol oynamışlar.

XX əsrin əvvəllərində Naxçıvanda mədəniyyət sahəsində böyük yüksəliş özünü göstərir. Həmin dövrdə Naxçıvanda dramatik və musiqili teatr yaranmış, açıq konsertlər təşkil edilmişdir. Üzeyir Hacıbəylinin və Zülfüqar Hacıbəyovun opera və musiqili komediyaları tamaşaya qoyulmuşdur. Şərq konsertlərinin təşkili, xalq çalğı alətləri ansambllarının çıxışları ənənəyə çevrilmişdir.

Naxçıvanın ictimai-mədəni mühitində Üzeyir Hacıbəylinin böyük rolu olmuşdur. Ü.Hacıbəylinin şəxsiyyətinə və yaradıcılığına böyük ehtiramla yanaşan Naxçıvan əhalisi 1937-ci ildə onu SSRİ Ali Sovetinə deputat göstərmişdi. Ü.Hacıbəylininn Naxçıvan musiqi məktəbinin açılmasında müstəsna xidmətləri olmuşdur.

Ulu öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətdə olduğu illəri Azərbaycan tarixinin mühüm bir dövrü kimi dəyərləndirmək lazımdır. Bu illər həm də Naxçıvanın inkişafı, tərəqqisi üçün mühüm bir mərhələdir. Azərbaycan Prezidenti olduğu illərdə Naxçıvana daim böyük diqqətlə yanaşan Heydər Əliyev Azərbaycanın bu qədim diyarının tarixinin, mədəniyyətinin müasir elmi üsul və əsaslarla dərindən, hərtərəfli araşdırılması, yüksək səviyyədə tədqiq olunması üçün böyük işlər görmüşdür.

Naxçıvanda musiqi məktəbinin yaradılması təhsilin və mədəniyyətin güclü inkişafına təkan verilmişdir. XX əsrin ikinci yarısında Naxçıvanda musiqi məktəbləri fəaliyyətə başlamış, Musiqi Texnikumu açılmış, xalq çalğı alətləri, eləcə də Avropa alətlərində musiqi təhsili şəbəkəsi yaranmış-

dır. Bu təhsil ocaqlarında yetişən musiqiçilər sonradan ali musiqi təhsili almaq məqsədilə Bakıya gəlmiş, Azərbaycan Dövlət Konservatoriyasında oxumuşlar. Ali təhsildən sonra bir çox professional musiqiçilər yenidən Naxçıvana qayıdaraq, yaradıcılıqla, pedaqoji və ictimai fəaliyyətlə məşğul olmuşlar. Hal-hazırda da bu musiqiçilər nəslinin davamçıları Haxçıvanın musiqi təhsili ocaqlarında fəaliyyət göstərirlər. Bunun nəticəsində Naxçıvanda bir sıra professional musiqi kollektivlərinin yaradılması mümkün olmuşdur. Naxçıvanda Azərbaycan Bəstəkarlar İttifaqının bölgə təşkilatının açılması muxtar respublikanın mədəni həyatında əlamətdar hadisələrdən biri olmuşdur. Təşkilat öz ətrafında Naxçıvanda yaşayıb-yaradan bəstəkar və musiqişünasları cəmləşdirərək, mütəmadi olaraq, yeni əsərlərdən ibarət konsertlər, yaradıcılıq gecələri keçirirlər.

**I fəslin ikinci yarımfəsli - 1.2. “Naxçıvanda xalq çalğı alətləri orkestrinin yaranması və musiqi həyatında rolu”nun öyrənilməsi ilə bağlıdır.** Naxçıvanda xalq çalğı alətləri orkestrinin yaranması XX əsrin I yarısında Azərbaycanda və bilavasitə paytaxt Bakıda gedən proseslərlə - musiqi təhsili sisteminin təkmilləşməsi və ifaçılıq sənətinin yüksəlməsi ilə bağlı olmuşdur. Azərbaycan xalq çalğı alətləri orkestrinin yaranma tarixi milli musiqi alətlərimizin inkişaf yolu ilə bağlıdır. Belə ki, uzun əsrlər boyu şifahi ənənəli ifaçılıq xüsusiyyətlərinə əsaslanan milli musiqi alətlərinə XX əsrdə not sisteminin tətbiq edilməsi nəticəsində professional musiqiçilərdən ibarət orkestrlərin təşkili mümkün olmuş, bəstəkar əsərlərinin ifası reallaşmışdır.

Naxçıvanda Xalq Çalğı Alətləri orkestrinin təşkili, eyni zamanda, Naxçıvan Muxtar Respublikasının musiqi mədəniyyətinin yüksəlişinin, musiqi təhsili prosesinin genişlənməsinin nəticəsi idi. Bu baxımdan Naxçıvan Muxtar Respublikasında bir sıra ansamblların yaradılması və fəaliyyəti qeyd olunmalıdır.

1950-ci illərdə geniş həcmli xalq çalğı alətləri ansambllarının formalaşmasında xalq sənətkarları iştirak etmişlər. 1955-ci ildə tarzən Yusif Əliyevin rəhbərliyi ilə Naxçıvan Dövlət Radio Komitəsinin nəzdində xalq çalğı alətləri ansamblı yaranmış və uğurla fəaliyyət göstərmişdir. 1963-cü ildə fəaliyyətə başlayan Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin nəzdində yaradılan xalq çalğı alətləri ansamblı da geniş fəaliyyət dairəsi və sənətkarlığı ilə diqqəti cəlb edir. Bu ansamblın rəhbərləri Vahid Axundov və Tapdıq Bağırov idi, ansamblın repertuarını xalq mahnı və rəqsləri, təsnif və rənglər, zərbi-muğamlar təşkil edirdi.

1959-cu ildə Naxçıvanda 30 nəfərdən ibarət Dövlət Konsert briqadası yaradıldı ki, bu da musiqi həyatında önəmli rol oynadı. Kollektivin rəhbəri

tarzən Vahid Axundov idi. Sonralar Məmməd Ələkbərov, Tapdıq Bağırov, Nəriman Sadıqov, Əkrəm Məmmədov, Ələkbər Ələkbərov, Rza Abbasov, Zöhrab Axundov, Abdulla Abdullayev kollektivin bədii rəhbəri olmuşlar. Bu kollektivin tərkibinə Naxçıvanın istedadlı musiqi ifaçıları daxil idi.

1963-cü ildə kollektivə "Araz" Mahnı və Rəqs ansamblı adı verilir. Bu kollektiv muxtar respublikanın aparıcı musiqi kollektivi kimi şöhrət qazanmışdır. Bu günə kimi fəaliyyətini davam etdirən kollektivin tərkibi yüksək sənətkarlıqları ilə tanınan musiqi ifaçılarından ibarətdir. "Araz" Mahnı və Rəqs ansamblı 1984-cü ildə yaradılan Naxçıvan Dövlət Filarmoniyasının nəzdində fəaliyyətini davam etdirir.

Naxçıvanda ilk xalq çalğı alətləri orkestri 1946-cı ildə istedadlı musiqiçilər Məmməd Cavadovun və Səfər Rəcəbovun təşəbbüsü ilə Naxçıvan İncəsənət İşçiləri İdarəsinin nəzdində yaranmışdır. Orkestrin dirijoru M.Cavadov idi. Orkestrin tərkibi 30 nəfərdən çox idi. Orkestrin repertuarında Ü.Hacıbəylinin, M.Maqomayevin əsərləri, zərbi-muğamlar, xalq mahnı və rəqsləri yer almışdı. Notla çalınan əsərləri orkestrə M.Cavadov, xalq musiqi nümunələrini isə S.Rəcəbov öyrədirdi. Solistlər Zərqələm Cavadova, Cəvahir Şuşinski, Firuzə Əlixanova və b. müğənnilər olmuşlar. Kollektiv Naxçıvanda, Ordubadda, Culfada və digər rayonlarda konsertlər vermiş və böyük rəğbətlə qarşılanmışdır.

Naxçıvanda notlu xalq çalğı alətləri orkestri 1959-cu ildə yaranmışdır. Orkestrin bədii rəhbəri və baş dirijoru Məmməd Ələkbərov təyin olunmuşdur. 1968-ci ildən isə bu vəzifədə Əkrəm Məmmədov uğurla fəaliyyət göstərmişdir. Orkestrin tərkibi Naxçıvanda fəaliyyət göstərən xalq çalğı alətləri ifaçılarından, eləcə də Naxçıvan Musiqi Texnikumunun müəllim və tələbə heyətindən ibarət idi. Yüksək peşəkarlığı ilə fərqlənən ifaçıların orkestrdə fəaliyyəti kollektivin ifaçılıq səviyyəsinin gündən-günə yüksəlməsinə təkan vermiş və onun Muxtar Respublikanın mədəni həyatında mühüm yer tutmasına səbəb olmuşdur.

1984-cü ildə Naxçıvan Dövlət Filarmoniyasının nəzdində Azərbaycan xalq çalğı alətləri orkestri yaranır. Orkestrin bədii rəhbəri və baş dirijoru Həsənağa Qurbanov təyin olunur, dirijoru Adıgözəl Rzayev idi. Kollektiv tez bir zamanda repertuarını yaradaraq, açıq konsertlərdə çıxış etməyə başlayır. Kollektiv həmin vaxtlarda Hüseyn Cavidin 100 illik yubileyində, Muxtar Respublikanın yaradılmasının 60 illik yubileyində müvəffəqiyyətlə çıxış edir.

1960-cı illərdə Naxçıvan şəhər 2 saylı uşaq musiqi məktəbində tarzən, bəstəkar və dirijor Rəşid Məmmədovun rəhbərliyi ilə xalq çalğı alətləri orkestri yaradılmışdır. 1966-cı ildə Bakı şəhərində keçirilən musiqi məktəblə-

rinin müsabiqəsində Naxçıvan musiqi məktəbinin xalq çalğı alətləri orkestri böyük uğurla çıxış etmiş və nümunəvi orkestr kimi musiqi ictimaiyyətinə təqdim olunmuşdur. Həmin dövrdə təntənəli dövlət konsertlərində çıxış etmək məqsədilə bu orkestrin bazasında ictimai əsaslarla Naxçıvan birləşmiş xalq çalğı alətləri orkestri yaradılır.

1996-cı ildə Naxçıvan Muxtar Respublikası rəhbərliyinin köməkliyi ilə Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetində konservatoriya ixtisasları - fortepiano, Azərbaycan xalq çalğı alətləri, xanəndə və vokal ixtisasları açılmışdır. Bu da Naxçıvanda musiqiyə, ümumiyyətlə təhsilə, mədəniyyətə olan böyük qayğıdan xəbər verir və Naxçıvan musiqiçilərinin professionallığının bariz göstəricisidir.

**I fəslin üçüncü yarımfəsli - 1.3. "Xalq çalğı alətləri orkestrinin tərkibi və repertuarı" məsələlərinə həsr olunmuşdur.**

Azərbaycan xalq çalğı alətləri orkestrinin yaradılması musiqi mədəniyyətinin inkişafında yeni mərhələ olmaqla, bəstəkar yaradıcılığında bu orkestr üçün yazılmış əsərlərin xüsusi bir sahə kimi formalaşmasına, alətləşdirmə və orkestrləmənin əsaslarının öyrənilməsinə, eləcə də xalq çalğı alətləri orkestri üzrə ifaçılıq, dirijorluq, alətləşdirmə və orkestrləmə fənlərinin tədris planına daxil edilməsinə təkan vermişdir.

Hal-hazırda Naxçıvan xalq çalğı alətləri orkestrinin tərkibi bu şəkildədir: nəfəsli alətlər - balabanlar (I, II, III, IV), tütək, zurna, klarnet, qoboy, fleyta; zərb alətləri – qaval, nağara, qoşanağara; simli-kamanlı alətlər – kamança (I, II); simli-mizrablı alətlər – tar (I, II, III), saz, qanun, ud, bas tar; fortepiano.

Bəstəkar əsərlərinin orkestrləmə xüsusiyyətlərindən asılı olaraq, alətlərin növlərində dəyişiklik ola bilər. Lakin orkestrin özəyini təşkil edən qruplar - tarlar, kamançalar və fortepiano, nəfəsli alətlərdən balabanlar, zərb alətlərindən nağara partiyaları dəyişməz olaraq qalır, hər bir qrup üzrə digər alətlərin daxil edilməsi bəstəkarın yaradıcılıq düşüncəsindən asılı olur.

Naxçıvan xalq çalğı alətləri orkestrinin repertuarında Azərbaycan bəstəkarlarının - Ü.Hacıbəylinin, S.Rüstəmovun, S.Ələsgərovun, H.Xanməmmədovun və b. bəstəkarların ənənəvi repertuar əsərləri ilə yanaşı, Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndələri olan naxçıvanlı bəstəkarların - N.Məmmədovun "Naxçıvan xatirələri" simfoniyettasını, "Səadət şəfəqi" süitası, R.Mirişlinin "Naxçıvan musiqi lövhələri" və s. əsərləri, orkestrin repertuarını zənginləşdirmişdir.

Naxçıvanda yaşayıb-yaradan bəstəkarlardan Rəşid Məmmədovun, Məmməd Ələkbərovun, Şəmsəddin Qasımovun, Yaşar Xəlilovun, Kamal

Əhmədovun, Əqidə Ələkbərovanın və başqalarının yaradıcılığında xalq çalğı alətləri orkestri üçün əsərlər xüsusi yer tutur.

**Dissertasiyanın II fəsli "Naxçıvan bəstəkarlarının xalq çalğı alətləri orkestri üçün əsərlərinin janr və üslub xüsusiyyətləri" adlanır.** Bu fəsil üç yarımfəsildən ibarətdir.

**II fəslin birinci yarımfəsli - 2.1. "Yaşar Xəlilovun Xalq çalğı alətləri orkestri üçün əsərləri"nin təhlilinə həsr olunub.** Naxçıvan Muxtar Respublikasının əməkdar incəsənət xadimi Yaşar Xəlilov müasir dövrdə Azərbaycan bəstəkarları arasında layiqli yer tutan, özünəməxsus dəst-xəttilə tanınan bəstəkardır. Y.Xəlilov yaradıcılığında musiqinin bir çox janrlarına müraciət etməklə yanaşı, xalq çalğı alətləri orkestri üçün diqqətəlayiq əsərlər bəstələmişdir. Bunlardan Hüseyn Cavidin "Səyavuş" dramına musiqi əsasında süita, "Muğam dastanı", "İnrtoduzione" əsərlərini, "Çahargah", "Bayatı-Şiraz" etüdlərini, "Məcnunun harayı" pyesini, "Sözsüz mahnı" və s. əsərləri göstərmək olar. Bu əsərlər həm də xalq çalğı aləti və fortepiano üçün instrumental pyeslər kimi də çalınaraq, konsert və tədris proqramlarına daxil olmuşdur.

Y.Xəlilovun xalq çalğı alətləri orkestri üçün "Muğam dastanı" əsəri Hüseyn və Ərtoğrol Cavidlərin xatirəsinə ithaf olunub. Əsərin proqramlı adı əlamətdardır. Bəstəkar xalq arasında çox sevilən iki janrın - muğam və dastanın əlamətlərindən istifadə edərək, xalq çalğı alətləri orkestri üçün iri həcmli, silsilə formalı əsər bəstələmişdir.

"Muğam dastanı" 4 hissədən ibarətdir: "Dəraməd", "Mayə", "Təsnif", "Rəng" adlanır. Bu adlar bilavasitə muğam dəstgahının tərkib hissələrilə bağlıdır. Bəstəkar bu əsərində əsasən "Segah" muğamının məqam-intonasiya quruluşuna əsaslanaraq, səciyyəvi əhval-ruhiyyəsini və melodik xüsusiyyətlərini əks etdirmişdir. Lakin Y.Xəlilov həmin muğamın adını əsərinin başlığına çıxarmır. Buna görə burada ümumi muğam ənənələrinə istinad olunmasından danışa bilərik.

Y.Xəlilovun "Muğam dastanı" əsəri xalq çalğı alətləri orkestrinin tam tərkibi üçün nəzərdə tutulmuşdur. Orkestrləmədə simli, nəfəsli və zərb alətlərinin maraqlı uzlaşdırılmasından, həm homofon-harmonik faktura tipindən, həm də polifonik üsulların tətbiqindən irəli gələrək, alətlər arasında səsləşmələrdən və tembrlərin qarşılaşdırılmalarından istifadə olunur. Əsərin orkestr dilində bəstəkar muğam ifaçılığının xüsusiyyətlərinə deyil, daha çox orkestrləmə sahəsindəki nailiyyətlərə əsaslanmışdır. Bununla yanaşı, muğam improvizasiyasını əks etdirən epizodlarda solo tar alətinin daxil edilməsi diqqəti cəlb edir. Y.Xəlilovun "Muğam dastanı" əsərinin partitura-

sında muğam ifaçılığı ilə bağlı ənənəvi cəhətlərlə yanaşı, bəstəkarın təxəy-yülündən irəli gələn orkestrləmə keyfiyyətləri, tembr boyalarının rəngarəng uzlaşdırılması özünü göstərir.

Y.Xəlilovun xalq çalğı alətləri orkestri üçün yazılmış "Süita" 3 hissədən ibarətdir. Hissələr xarakterinə, tempinə və musiqi dilinin xüsusiyyətlərinə görə fərqlənir: I hissə - Andante cantabile, II hissə - Adagio sostenuto ed elegiaco, III hissə - Allegretto grazioso. Hər bir hissə musiqi məzmununa və melodik xüsusiyyətlərinə görə rəngarəng xarakterli xalq rəqslərini xatırladır, buna görə də bu süitanı - rəqs süitası kimi xarakterizə edə bilərik. Partituranın tərkibində xalq çalğı alətləri orkestrinin əsas alətlər qrupları öz əksini tapmışdır. Orkestr fakturası homofon-harmonik quruluşludur, melodik xətt və müşayiət fonuna bölünür, xalq instrumental ifaçılığından gələn cəhətləri əks etdirir.

Y.Xəlilovun xalq çalğı alətləri orkestri üçün "İntroduzione" əsəri iki hissədən - ağır və cəld templi hissələrdən ibarət kompozisiyadır. Birinci hissə - "Moderato con moto", ağır tempdə səslənir, lirik xarakterə malikdir. İkinci hissə - "Allegro con brio", cəld tempdə, şən-şux əhval-ruhiyyə daşıyır. Əsərin hissələri bir-birini tamamlayaraq, lirik hissənin coşğun rəqslə əvəzlənməsini özündə əks etdirir ki, bu da özlüyündə xalq məişət lövhəsinin yaradılmasına xidmət edir. Əsərdə milli musiqi intonasiyalarına istinad qabarıqdır. Melodik quruluş çahargah məqamına əsaslanır. Harmonik dildə bu məqamın dayaq pilləri mühüm rol oynayır. Musiqi materialının inkişafında məqam tonallıqlarının dəyişməsi mühüm əhəmiyyətə malikdir və inkişafın yüksələn xətlə inkişaf xətti üzrə kompozisiyanın quruluşunu təmin edir.

**II fəslin ikinci yarımfəslində - 2.2. "Kamal Əhmədovun xalq çalğı alətləri orkestri üçün vokal-instrumental əsərləri" təhlil olunur.**

Naxçıvan musiqi mədəniyyətinin inkişafında tanınmış bəstəkar Kamal Əhmədovun özünəməxsus xidmətləri vardır. K.Əhmədov 1985-ci ildə Naxçıvanda Dövlət Filarmoniyasının Xalq çalğı alətləri orkestrinin bədii rəhbəri və baş dirijoru təyin olunmuşdur. 1985-1997-ci illərdə bu kollektivə rəhbərlik edən K.Əhmədov repertuarın zənginləşməsi, orkestrin ifaçılıq səviyyəsinin yüksəlməsi istiqamətində çox çalışır. Onun idarəsilə orkestr Bakı, Sumqayıt şəhərlərində dəfələrlə konsertlər verir. K.Əhmədov bir bəstəkar kimi də öz yaradıcılığını xalq çalğı alətləri orkestri ilə bağlayaraq, bu orkestr üçün müxtəlif janrlı orijinal əsərlər və işləmələr yaradır. Bu baxımdan onun "Cəngi", "Süita", "Naxçıvan eskizləri" əsərləri diqqətəlayiqdir. Xüsusilə onun 20 yanvar şəhidlərinə həsr olunmuş "Rekviyem" əsəri "Şəhidlər" simfoniyası adı ilə Televiziya və Radioda dəfələrlə səsləndiril-

mişdir. K.Əhmədovun xalq çalğı alətləri orkestri üçün nəzərdə tutulmuş əsərləri sırasında "Ömrün Heydər Zirvəsi", "Zəfər türküsü", "Vətəndir" vokal-instrumental əsərlər də mühüm yer tutur.

K.Əhmədovun Zəlimxan Yaqubun sözlərinə yazılmış "Ömrün Heydər zirvəsi" odası xalqımızın Ulu öndəri Heydər Əliyevə həsr olunmuşdur. Bu baxımdan, K.Əhmədovun oda janrına müraciəti mövzunun əhəmiyyətindən irəli gəlir. Əsər solo tenor və soprano, dörd səsli xor və xalq çalğı alətləri orkestri üçün yazılmışdır. Vokal partiyalarla xorun və orkestrin uzlaşdırılması ahəngdarlıq təşkil edir, bir-birini tamamlayır. Bütün bunlar əsərin əsas obrazının möhtəşəmliyini təsvir etmək üçün bir məqsədə yönəldilmişdir. Burada vokal (solistlər və xor) və orkestr vəhdətdə, daimi dialoqda, homofon-harmonik fakturada, gah da polifonik üsullarla qarşılıqlı inkişafda verilərək, partituranın dolğun səslənməsinə xidmət edir.

K.Əhmədovun "Zəfər türküsü" əsəri solo tenor və xalq çalğı alətləri orkestri üçün bəstəkarın öz sözlərinə yazılmışdır. Bu əsərdə xalqımızın igid oğullarının qəhrəmanlığı, mərdliyi, cəsurluğu tərənnüm olunur, qələbəyə inamı, zəfər coşğusu səsləndirilir. Mətnin çağırış ruhlu misralarının dəfələrlə təkrarlanması musiqi quruluşunda da öz əksini tapır. Əsərin partiturası olduqca koloritlidir. Burada mübarizlik, səmimilik, rəngarənglik dinamik səslənmə ilə uyğunlaşır. Bu əsərdə xalq çalğı alətləri orkestrinə daxil olan bütün qrupların bədii və texniki inkanları, tembr xüsusiyyətləri K.Əhmədov tərəfindən məharətlə istifadə olunmuşdur. Əsərin melodik quruluşu zildə səslənməsi ilə, çağırış intonasiyalarına əsaslanması ilə, orkestr partiyasında ostinat ritmli zəngin tərkibli akkordların ostinat ritmdə saxlanılması ilə aşıq havalarını xatırladır.

"Vətəndir" bəstəkarın öz sözlərinə yazılmışdır. Təntənəli, möhtəşəm, eyni zamanda, vətən məhəbbətindən doğan kövrək, təsirli hissləri əks etdirir. Əsər instrumental giriş və kodası olan mürəkkəb üç hissəli formada yazılmışdır. Giriş və koda eyni musiqi materialına əsaslanaraq, bütün kompozisiyanı çərçivəyə alır. "Vətəndir" əsərini bəstəkar janr xüsusiyyətlərinə görə romans kimi təqdim etsə də, həcminə, quruluşuna, musiqi dilinin xüsusiyyətlərinə görə vokal-instrumental poema janrının əlamətlərini müşahidə edirik. Burada səs və orkestr partiyası bir-birini tamamlayaraq, əsərin dramaturji inkişafında mühüm əhəmiyyətə malik olub, vahid bir obrazın yaradılmasına xidmət edir. Əsərdə xalq çalğı alətləri orkestrinin tam tərkibindən istifadə olunmuşdur. Lakin orkestrləmə şəffafdır. Bəstəkar girişdə partiturada bütün alətlərə yer versə də vokalın müşayiətində tembrlərdən qənaətlə istifadə edir, əsasən vokalı qabarıq göstərmək üçün ostinat akkordlu müşayiət fonu üstünlük təşkil edir.

**II fəslin üçüncü yarımfəslində - 2.3. “Rəşid Məmmədovun Xalq çalğı alətləri orkestrinin müşayiətilə vokal əsərləri” təhlil olunur.**

Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, bəstəkar və pedaqoq Rəşid Məmmədovun Naxçıvan musiqi mədəniyyətinin inkişafında xüsusi yeri vardır. R.Məmmədov 1960-cı illərdən müəllim, bəstəkar və dirijor kimi fəalliyyət göstərmişdir. O, Naxçıvan birləşmiş xalq çalğı alətləri orkestrinə rəhbərlik və dirijorluq etmişdir. 1970-ci illərdə R.Məmmədov qədim musiqi alətlərinin, unudulmuş sənət nümunələrinin, el sənətkarlarının təbliğinə çalışmış, tulum və yan tütək alətləri ifaçılarından ibarət yaratdığı ansamblla mütəlif müsabiqə və festivallarda iştirak etmişdir.

R.Məmmədovun yaradıcılığında xalq çalğı alətləri orkestri üçün yazdığı əsərlər mühüm yer tutur. Bu baxımdan onun “Süita” əsəri xüsusilə diqqətəlayiqdir və orkestrin repertuarına daxildir. R.Məmmədovun yaradıcılıq dəst-xətti özünəməxsus keyfiyyətləri ilə fərqlənir. Bəstəkarın partituralarındakı sadə, yaddaqalan melodiyalar, maraqlı faktura, zəngin orkestrləşdirmə, ritmik quruluş onun professionallığından xəbər verir.

R.Məmmədovun yaradıcılığında vokal musiqisi əhəmiyyətli yer tutur. Onun mahnılarının əksəriyyəti müğənnilər tərəfindən xalq çalğı alətləri orkestrinin müşayiətilə ifa olunmaq üçün nəzərdə tutulmuşdur. Bu baxımdan, bəstəkarın xalq çalğı alətləri orkestrinin orkestrləmə prinsiplərini yaxşı bilməsi əsərlərin tərtibatında özünü göstərir.

Rəşid Məmmədovun səs və xalq çalğı alətləri orkestrinin müşayiətilə ifa olunmuş “Sən əbədiliksən”, “Sənsən xilaskar”, “Odlar diyarının əsgərləriyik”, “Doğma Naxçıvan”, “Bakım mənim”, “Qurban gedər eşqimiz”, “Daşlara yazdım”, “Xoşbəxt ol, ay qız” kimi mahnıları vətənpərvərlik və lirik ruhludur. Bəstəkarın vokal melodiyaları ifadə vasitəsi kimi onun daxili hisslərini, ideya və fikirlərini təcəssüm etdirir. Onun yaratdığı melodiyalar özlüyündə çox oxunaqlı olub, təsirli və yaddaqalandır.

R.Məmmədovun xalq çalğı alətlərinin müşayiəti ilə mahnılarında mövzudan irəli gələrək, ifadə vasitələrinin və orkestrləmənin müxtəlifliyini izləyirik. Nəzərdən keçirdiyimiz mahnılar tarixi-vətənpərvərlik və məhəbbət məzmunlu olub, marşvari, himnvari və lirik xarakterə malikdir. Bütün bu mahnılarda mövzunun özünəməxsus həlli vasitələri ilə qarşılaşırıq ki, bu da musiqi formasında, melodik quruluşda, məqam əsasında, harmonik dilində, metroritmik başlanğıcda, orkestrləmədə, fakturanın tərtibatında öz əksini tapır.

R.Məmmədovun tarixi-vətənpərvərlik ruhunda yazılmış mahnılarından bir qismi Ümummilli liderimiz Heydər Əliyevə həsr olunmuşdur: “Sən əbədiliksən”, “Sənsən xilaskar”; bir sıra mahnılarda doğma yurdun tərən-

nümü öz əksini tapır: “Doğma Naxçıvan”, “Bakım mənim”, həmçinin, hərbi-vətənpərvərlik ruhlu “Odlar diyarının əsgərləriyik” və s. özünəməxsus keyfiyyətləri ilə fərqlənir.

R.Məmmədovun lirik mahnıları - “Daşlara yazdım”, “Xoşbəxt ol ay qız”, “Qurban gedər eşqimiz” və s. mahnıları sevgi-məhəbbət mövzusuna, həzin melodik-intonasiya məzmununa və mülayim tempə əsaslanır. Müstəqil musiqi mövzusu əsasında yazılmış bu mahnıların xarakterində və musiqi quruluşunda müəyyən oxşarlıqlar özünü göstərir ki, bu da bəstəkarın lirik musiqi üslubunun xüsusiyyətlərindən irəli gəlir. Mahnılarda vokal partiyanın orkestr müşayiəti onun hərəkət xətti ilə bağlıdır. Belə ki, orkestr partiyalarında melodiyanın hərəkət xətti bəzən bütövlükdə, bəzən isə elementlərlə təkrarlanaraq, ümumilikdə polifonik imitasiyalı müşayiət fonu əmələ gətirir. Bəzi hallarda orkestr alətlərinin unison şəkildə melodiyanı təkrarlaması özünü göstərir.

Dissertasiyanın **Nəticə** bölməsində tədqiqata yekun vurulur. Naxçıvan musiqi mədəniyyətinin inkişafında xalq çalğı alətləri orkestrinin rolunun araşdırılmasından əldə edilən nəticələr qeyd olunur.

Naxçıvanda xalq çalğı alətləri orkestrinin yaradılması bu bölgənin zəngin musiqi ifaçılığı ənənələrinin davamı kimi qiymətləndirilir. Naxçıvan musiqi həyatında xalq çalğı alətlərinin geniş tətbiqi, peşəkar musiqi ifaçılarının fəaliyyəti, musiqi sahəsində güclü pedaqoji ənənələrin formalaşması müxtəlif tərkibli xalq çalğı alətləri ansambllarının və XX əsrin ortalarında xalq çalğı alətləri orkestrlərinin təşkil olunmasına zəmin yaratmışdır. 1930-cu illərdə Bakıda Üzeyir Hacıbəylinin, Müslüm Maqomayevin, Səid Rüstəmovun və başqa bəstəkar və musiqi ifaçılarının böyük xidmətləri sayəsində qurulan notlu xalq çalğı alətləri orkestrinin fəaliyyəti əsil sənətkarlıq məktəbinə çevrilmişdir. Bu orkestrin təşkili sxemi, repertuarı, ifaçılıq ənənələri Naxçıvanda yaradılan xalq çalğı alətləri orkestri üçün örnək olmuşdur.

Naxçıvanda xalq çalğı alətləri orkestrinin yaranma səbəblərindən biri də musiqi təhsilinin inkişafı ilə bağlıdır. Hələ qədim dövrdən ustad-şagird ənənələrinə əsaslanan xalq çalğı alətləri ifaçılığı, 1930-cu illərdən artıq sistemli təhsil verən musiqi məktəblərində, daha sonralar orta ixtisas musiqi məktəbində inkişaf etdirilməyə başladı. Naxçıvanda musiqi təhsilinin genişlənməsi Azərbaycan Dövlət Konservatoriyasında təhsil alan və Naxçıvanda pedaqoji fəaliyyətlə məşğul olan bütün ixtisaslar üzrə musiqiçi kadrların (xalq çalğı alətləri və avropa alətləri üzrə ifaçıların, bəstəkar və musiqişünasların) hazırlanması ilə bağlı olmuşdur. Hal-hazırda uşaq musiqi məktəblərində, musiqi kollecində və ali musiqi təhsili ocağı olan Naxçıvan Dövlət Universi-

tetinin nəzdindəki Konservatoriyada - bakalavr və magistr pillələrində xalq çalğı alətləri ifaçıları yüksək peşəkar müəllimlər tərəfindən yetişdirilir.

Naxçıvanda yaşayıb-yaradan bəstəkarların yaradıcılığında xalq çalğı alətləri orkestri üçün yazılmış əsərlər mühüm yer tutur. Naxçıvan xalq çalğı alətləri orkestri üçün yazılmış əsərlər janr xüsusiyyətləri baxımından iki istiqamətdə xarakterizə oluna bilər: 1) instrumental əsərlər: xalq çalğı alətləri orkestri üçün əsərlər; müxtəlif janrlı əsərlər - iri həcmli silsilə əsərlər, süitalar, fantaziyalar, kiçik həcmli pyeslər və s.; 2) vokal-instrumental əsərlər: solist, xor və xalq çalğı alətləri orkestri üçün əsərlər; səs və xalq çalğı alətləri orkestrinin müşayiətilə mahnılar.

Dissertasiyada Y.Xəlilovun, K.Əhmədovun və R.Məmmədovun xalq çalğı alətləri orkestri üçün əsərlərinin əsərlərinin təhlili verilmişdir.

Nəzərdən keçirdiyimiz əsərlərdə bəstəkarların Vətən mövzusuna müraciət etməsi diqqətəlayiqdir. Bu əsərlərdə bəstəkarlar Vətənin tarixi keçmişi və gerçək zamanla bağlı dərin fikir və hisslərini, müasir dövrdə həmvətənlərinin arzularını, lirik hisslərini, gənclərin mənəviyyatını, maraq dairəsini, estetik zövqünü, eləcə də qəlbinin incə tellərinə toxunan ümumbəşəri mövzuları işıqlandırmağa çalışmışdır. Xüsusilə Naxçıvan torpağının yetirməsi olan dahi şəxsiyyət, Ümummilli liderimiz Heydər Əliyevin surəti bəstəkar əsərlərində tərənnüm olunmuşdur ki, bu da Vətən obrazı ilə bağlanır.

Lirik mövzulu əsərlərdə zərif lirika, səmimi hisslər, incə xatirələr müvafiq musiqi ifadə vasitələri ilə təsvir olunur. Mövzudan irəli gələrək, onun xarakterik xüsusiyyətləri musiqi quruluşunda, melodik intonasiya səviyyəsində, metro-ritmik cəhətlərdə öz təzahürünü tapır. Dissertasiyada hərtərəfli musiqi təhlili aparılmış, əsərin təfsiri ilə bağlı olaraq, orkestrləmə məsələlərinə daha çox diqqət yetirilmişdir.

Beləliklə, xalq çalğı alətləri orkestrinin yaradıcılıq yoluna və repertuarına nəzər salaraq, qeyd etmək olar ki, onların inkişaf perspektivi genişdir və ildən-ilə ifaçılıq səviyyəsinin yüksəlməsi, ifaçılıq təcrübəsinin artması, rəngarəng üslublu əsərlərin yaranması sayəsində orkestrin yeni imkanları açılır.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi məqalələri çap olunmuşdur:**

1. Naxçıvan musiqi mədəniyyətində xalq çalğı alətləri orkestrinin rolu. / Azərbaycan Respiblikası Təhsil Nazirliyi. Naxçıvan Dövlət Universiteti. Regional inkişaf və böyük mədəniyyət: Mənşə, Harmoniya və Tipologiya məsələləri. Naxçıvan, 25-26 oktyabr 2013-cü il. s.116-117.

2. XX əsrdə Naxçıvan musiqi mədəniyyətinin inkişafı. // “Harmony” международный музыкальный культурологический журнал. Баку, Выпуск № 13/2014. с.1-4.

3. Naxçıvan filarmoniyasının xalq çalğı alətləri orkestri. / Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri. Bakı, XIII Beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 2014. s. 59-60.

4. Rəşid Məmmədovun səs və xalq çalğı alətləri orkestrinin müşayiətilə mahnıları. // “Harmony” международный музыкальный культурологический журнал. Баку, Выпуск № 14/2015. с.1-4.

5. Müasir dövrdə Naxçıvan musiqi mədəniyyətinin tədqiqi məsələləri. // “Harmony” международный музыкальный культурологический журнал. Баку, Выпуск № 15/2016. с.1-4.

6. Жанровые особенности произведений Азербайджанских композиторов для оркестра народных инструментов. / Научные исследования в сфере гуманитарных наук: Открытия XXI века. III международной научно-практической конференции. Пятигорск, 4-5 февраля 2016 года. С. 115-117.

7. Пути развития оркестра народных инструментов в Азербайджане. // «Поиск» Международный научный журнал - приложение Республики Казакистан. № 4/2016. с. 84-86.

8. Yaşar Xəlilovun xalq çalğı alətləri orkestri üçün əsərləri. // “Musiqi dünyası” jurnalı, № 4/69, 2016. s. 60-61.

9. Kamal Əhmədovun xalq çalğı alətləri orkestri üçün vokal-instrumental əsərlərinin üslub xüsusiyyətləri. // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri. Naxçıvan, “Qeyrət” nəşriyyatı, 2016, № 4 (78), s. 81-85.

10. Naxçıvanda xalq çalğı alətləri orkestrinin inkişaf yolları // “Musiqi dünyası” jurnalı, № 2 / 72, 2017. s.17-18.

**Вахид Мамедали оглы Мамедов**

## «Роль оркестра народных инструментов в музыкальной культуре Нахчывана»

## РЕЗЮМЕ

Диссертация посвящена изучению роли оркестра азербайджанских народных инструментов в развитии музыкальной культуры Нахчывана. В этом аспекте рассматривается роль азербайджанских музыкальных инструментов в развитии музыкальной культуры, история создания и развития оркестра азербайджанских народных инструментов в Нахчыване. Автор рассматривает репертуар оркестра азербайджанских народных инструментов и характеризует исполнительские качества оркестра, дает характеристику произведений для оркестра народных инструментов композиторов Нахчывана.

Диссертация состоит из введения, 2-х глав, заключения и библиографии.

**I глава** – «История создания оркестра народных инструментов и его роль в развитии музыкальной культуры в Нахчыване» – состоит из трех разделов: **1.1.** – «Проблемы исследования Нахчыванской музыкальной культуры в современный период»; **1.2.** – «Создание оркестра народных инструментов и его роль в музыкальной жизни Нахчывана»; **1.3.** – «Состав и репертуар оркестра народных инструментов».

**II глава** диссертации – «Жанровые и стилистические особенности произведений для оркестра народных инструментов композиторов Нахчывана» – состоит из трех разделов: **2.1.** – «Произведения Яшара Халилова для оркестра народных инструментов»; **2.2.** – «Вокально-инструментальные произведения Камала Ахмедова для оркестра народных инструментов»; **2.3.** – «Вокальные произведения Рашида Мамедова в сопровождении оркестра народных инструментов».

В **заключении** даются выводы и обобщения проведенного музыкального анализа.

**Vahid Mammadali Mammadov**

## "The role of the orchestra of folk instruments in the musical culture of Nakhchivan"

## SUMMARY

The thesis is devoted to the study of the role of the orchestra of Azerbaijani folk instruments in the development of the musical culture of Nakhchivan. In this aspect, the role of Azerbaijani musical instruments in the development of musical culture, the history of creation and development of the orchestra of Azerbaijani folk instruments in Nakhchivan is considered. The author considers the repertoire of the orchestra of Azerbaijani folk instruments and characterizes the performing qualities of the orchestra, characterizes works for the orchestra of folk instruments of composers of Nakhchivan.

The dissertation consists of introduction, 2 chapters, the conclusion and the bibliography.

**I chapter** - "The history of the creation of the orchestra of folk instruments and its role in the development of musical culture in Nakhchivan" - consists of three sections: **1.1.** – "Problems of research of the Nakhchivan musical culture in the modern period"; **1.2.** – "Creation of an orchestra of folk instruments and its role in the musical life of Nakhchivan"; **1.3.** – "Composition and repertoire of the orchestra of folk instruments".

**II chapter** of the dissertation - "Genre and stylistic features of works for the orchestra of folk instruments of composers of Nakhchivan" - consists of three sections: **2.1.** – "Yashar Khalilov's works for the orchestra of folk instruments"; **2.2.** – "Vocal-instrumental works of Kamal Akhmedov for the orchestra of folk instruments"; **2.3.** – "Vocal works of Rashid Mamedov accompanied by the orchestra of folk instruments".

In conclusion is given inference and generalisations of musical analysis.

Çapa imzalanıb: 09.02.2018.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКАЯ МУЗЫКАЛЬНАЯ АКАДЕМИЯ
имени УЗЕИРА ГАДЖИБЕЙЛИ**

*На правах рукописи*

**ВАХИД МАМЕДАЛИ оглы МАМЕДОВ**

# РОЛЬ ОРКЕСТРА НАРОДНЫХ ИНСТРУМЕНТОВ В МУЗЫКАЛЬНОЙ КУЛЬТУРЕ НАХЧЫВАНА

**6213.01 – Музыкальное искусство**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени
доктора философии по искусствоведению**

**Баку – 2018**